


# Mükəmməl səviyyədə

**Hər bir tədbirin özəlliyi onun qarşıya qoyduğu məqsəd və məramın böyüklüyü, verdiyi səmərənin ümumxalq və ümumdövlət əhəmiyyətli olması ilə ölçülür.**

**Bu mənada, Bakıda keçirilməsi artıq ənənə halını almış Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər (AİTF) sərgisi yüksək dəyərləndirilməlidir.**

Bəri başdan qeyd edək ki, istər mükəmməl səviyyədə təşkilinə, istərsə də sərgiyə qatılan təşkilatların kütləviliyinə görə 11-ci dəfə gerçəkləşdirilən "AİTF-2012" daha çox diqqət çəkir.

Üç gün ərzində qapılarını respublika sakinlərinin və əcnəbi qonaqların üzünə geniş açmış Sərginin təşkilatçısı "İTE Group"un (Böyük Britaniya) Qafqazdakı eksklüziv tərəfdaşı "İteca Caspian" olmuşdur.

Sərgidə dünyanın müxtəlif yerlərinə turizm səfərlərinin təşkil olunmasından başlayaraq, hava daşımaları, hoteldə yerləşdirmə və otaqların bron edilməsinə qədər turizm xidmətlərinin bütün spektri nümayiş etdirilmişdir.

Burada 62 turizm istiqaməti, 15 milli ekspozisiya və 32 iştirakçı ölkə təqdim olunmuşdur. Azərbaycan, Gürcüstan, Sloveniya, Çexiya, Dubay (BƏƏ), Türkiyə, Bolqarıstan, Dağıstan, Stavropol diyarı, Hindistan, Kipr, Krım, Litva, Malayziya və Xorvatiya öz milli ekspozisiyalarını nümayiş etdirmişlər. Bolqarıstan, Sloveniya, Çexiya, Rusiya və Ukrayna öz məşhur müalicəvi kurortları barədə zəngin təəssürat yaratmışlar. Stavropol diyarının stendi sanatoriya müalicəsi üzrə öz metodikaları ilə məşhur olan Yessentuki, Jeleznovodsk, Kislovodsk, Mineralnıye Vodı və Pyatiqorsk kimi kurort-şəhərlərin ekspozisiyalarını birləşdirmişdir. Ekzotik turizmi təşkil edən şirkətlər Tayland, Mavriki və Seyşel kimi istiqamətləri diqqətə çatdırmışlar.

Ümumdünya Turizm Təşkilatı "AİTF-2012"-yə öz stendi ilə gəlmişdir. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi də xüsusi stendlə çıxış etmişdir.

Sərginin açılışında mədəniyyət və turizm naziri Əbülfəs Qarayev xatırlatmışdır ki, əgər 2002-ci ildə sərgidə 7 ölkədən 23 şirkət iştirak edirdisə, sonuncu sərgiyə 32 ölkədən 201 şirkət qatılmışdır. Onun sözlərinə görə, 2011-ci ildə Azərbaycanda turizm ili olduğundan, ölkəyə gələn əcnəbilərin sayında rekord göstərici - 2 milyon 134 min nəfər qeydə alınmışdır.

Nazir qeyd etmişdir ki, daxili turizmin inkişafı üçün dövlət proqramı mövcuddur: "Hər bir rayonun inkişaf proqramı tərtib olunanda orada turizmin inkişafına xüsusi önəm verilir".

Regionlarda xüsusi turizm zonalarının yaradılması təkliflərini hazırlayıb həyata keçirdiklərini vurğulayan Ə.Qarayev turizm sahəsində fəaliyyət göstərən işçilər üçün peşə hazırlığını artırma kûrslarının təşkil olunduğunu da xatırlatmışdır: "Bundan başqa, xaricdə keçirilən turizm sərgilərində Azərbaycanın regionlarını təbliğ edirik.

Azərbaycan daxili turizmdə bir neçə istiqaməti - ekoloji turizmi, macəra turizmini və s. inkişaf etdirir. Nəticədə ölkəmizə gələn əcnəbi turistlərin sayı ildən-ilə artır".




Məlum olduğu kimi, dövlət başçısının göstərişi ilə "Eurovision-2012" müsabiqəsində iştirak etmək üçün Azərbaycana gələnlərə viza hava limanında verilmişdir.

Bunu çox ciddi addım kimi qiymətləndirən nazir xatırlatmışdır ki, Azərbaycana gələn əcnəbilərə vizanın elektron qaydada verilməsi üçün müvafiq proqram hazırlanır: "Proqrama əsasən, Azərbaycana gələn turistlər vizaları 15 gün ərzində internet vasitəsilə əldə edəcəklər. Hazırda bu istiqamətdə ciddi işlər görülür. Düşünürəm ki, bu ilin sonunadək Azərbaycana gələn turistlər vizanı internet vasitəsilə ala biləcəklər".

Ə.Qarayev bu kimi addımların ölkədə turizmin inkişafına təkan verəcəyi qənaətindədir: "2012-ci ildə Azərbaycanda turizm sahəsinin artım tempi 14% olub. Ötənilki artım templərini nəzərə alsaq, bu il sözügedən sektorda artım tempinin 10-15% olacağı gözlənilir".

Yeri gəlmişkən, mədəniyyət və turizm naziri xəbərdarlıq etmişdir ki, yay mövsümünün yaxınlaşması ilə əlaqədar Azərbaycanda bütün turizm obyektləri, o cümlədən hotel, mehmanxana və istirahət mərkəzləri yoxlanılacaq: "Azərbaycanda turizm mövsümü adətən iyunun 15-də açılır. Ona görə də yoxlamalar may ayının sonunda - iyunun əvvəlində aparılacaqdır..."




Nazir keyfiyyətsiz və lisenziyasız fəaliyyət göstərən turizm obyektlərinin fəaliyyətinin dayandırılacağını da vurğulamışdır.

Məlumat üçün bildirək ki, son 5 ildə Azərbaycana gələn turistlərin sayında 70 faiz artım qeydə alınmışdır. Belə ki, əgər 2006-cı ildə ölkəmizə 1,262 milyon turist gəlmişdisə, ötən 5 ildə onların sayı 872 min



nəfər artaraq ilk dəfə olaraq 2 milyon nəfərlik (2,1 milyon nəfər) həddi keçmişdir. İki il əvvəl 1,962 milyon turist qəbul edən Azərbaycan 2011-ci ildə bundan 172 min çox turist qarşılamışdır.

2009-cu il istisna olmaqla son 5 ildə Azərbaycana gələn turistlərin sayında mütəmadi artım müşahidə olunmuşdur: 2007-ci ildə ölkəyə 1,332 milyon, 2008-ci ildə 1,898 milyon, 2009-cu ildə 1,830 milyon turist gəlmişdir.

Son illərdə Azərbaycanda turizmin inkişafı, daha çox turistin cəlb edilməsi üçün müxtəlif tədbirlər görülür. Onlardan biri də hotel və turizm obyektlərinin sayının artırılmasıdır. 2011-ci ildə Azərbaycanda 45 yeni hotel və yaşayış məkanı inşa olunmuşdur. Ötən ilin nəticələri nəzərə alınmaqla Azərbaycanda istifadəyə verilən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 544-ə çatmışdır. Müqayisə üçün qeyd edək ki, 2006-cı ildə belə müəssisələrin sayı 285 idi. Bu göstərici 2007-ci ildə 320-yə, 2008-ci ildə 370-ə, 2009-cu ildə 452-yə, 2010-cu ildə 499-a yüksəlmişdir.

**Azərbaycana 120-dən artıq ölkədən turist gəlir. Onların üçdən biri Rusiya, Gürcüstan, İran və Türkiyə vətəndaşlarıdır. Bu ölkələrin hər birindən il ərzində respublikamıza 200 mindən çox turist səfər edir. Ukrayna və Britaniyadan gələn turistlərin də sayı durmadan artmaqdadır.**

**E. HƏSƏNQIZI**

**P.S. Turist dedikdə, sadəcə, istirahət və əylənmək üçün gələnlər nəzərdə tutulmur. Bura həmçinin işgüzar, müalicə və digər məqsədlər üçün qısa zaman kəsiyində, yəni 24 saatdan 6 aya qədər müddətə səfər edən əcnəbilərin hamısı aid edilir.**

